Ədalət 2019.- 22 oktyabr.- S.3.

# Göyçayda Müstəqillik Günü təntənə ilə qeyd olundu



**18 oktyabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 28 ildönümü münasibətilə Göyçayda şəhərin Heydər Əliyev prospekti istiqamətində "Qarabağ Azərbaycandır və nida işarəsi" şüarı altında Ülu Öndərin abidəsinədək 3 min nəfərin iştirakı ilə ümumrayon yürüşü keçirilmişdir. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül-çiçək dəstələri düzmüşlər.**

Azərbaycan Respublikasının dövlət himni ilə başlayan tədbiri rayon icra hakimiyyəti başçısının müavini Zivər Zeynalova giriş sözü ilə açaraq bildirdi ki, müstəqil bir dövlətə sahib olmaq, öz müqəddəratını və taleyini müstəqil şəkildə təyin etmək bir xalqın əldə edə biləcəyi ən böyük nailiyyətdir. Bir millətin qazana biləcəyi digər nailiyyətlər yalnız müstəqil dövlətə sahib olduqda mümkündür. Azərbaycan xalqı tarix böyu özünün dövlətçilik ənənələrinə malik olmuş, işğalçılara və imperializmə qarşı mübarizə aparmış və təkcə XX əsrdə iki dəfə öz müstəqilliyini əldə etmişdi. Birinci dəfə cəmi 23 ay sürən müstəqilliyimizin ikinci dəfə 1991-ci ildə bərpa edildikdən sonra ömrü daha qısa ola bilərdi.

Lakin, Ulu Öndərin qəti siyasi iradəsi nəticəsində müstəqilliyimiz nəinki qorundu, hətta dinamik şəkildə inkişaf etdi.





Rayon İcra Hakimiyyətinin başçısı Mehdi Səlimzadə çıxış edərək qeyd etdi ki, bu gün hər bir azərbaycanlının müqəddəs borcu və vəzifəsi müstəqil dövlətimizi qorumaq, onun inkişafına və tərəqqisinə nail olmaq, prezidentimizin daxili və xarici siyasətini müdafiə etmək, Azərbaycanın inkişafı və xoşbəxtliyi uğrunda mübarizələrdə onun ən yaxın köməkçiləri olmaqdır.

Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışına toxunan rayon İcra Hakimiyyətinin başçısı Qarabağ həqiqətləri, Ermənistanın işğalçılıq siyasətini tutarlı faktlarla bir daha ifşa etməsini önə gətirərək "Qarabağ Azərbaycandır və nida işarəsi" hərəkatını xalqımızın torpaqlarımızın işğaldan azad edilməsinə doğru məqsədini daha da yaxınlaşdırdığını bildirdi.

Gənclər və idman İdarəsinin rəisi Elşən Şirinov, 17 saylı Şuşa məktəbinin müəllimi Səməd Şuşalı və gənc müəllimlər adından Yekəxana kənd məktəbin müəllimi Aysel Məmmədova çıxış etmişlər. Rayon Mədəniyyət Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edən tədbirdə Güləş idman növü üzrə Beynəlxalq idman yarışlarındakı nailiyyətlərinə görə Qismət Eyyubov, Vasif Məmmədov rayon İcra Hakimiyyəti başçısının təşəkkürnaməsi ilə təltif olunmuşlar.

**Tədbirin sonunda Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci və Göyçay Gənclər Mərkəzinin kollektivi 500 nəfərdən ibarət gənclərlə birgə Gənclər mərkəzin qarşısında 200 metr məsafədə "Qarabağ Azərbaycandır!" şüarını narla yazaraq flaşmob nümayiş etdirmişlər.**

**Zivər Zeynalova,**
**Göyçay RİHB-nın müavini**